# XX əsrin qəhrəmanlıq salnaməsi



**1990-cı ilin 20 Yanvar günü Azərbaycan tarixində qanla yazılmış bir səhifədir. Lakin bu tarix Azərbaycan xalqının XX əsrdə növbəti istiqlal yolunun ilk zirvəsi olaraq milli məfkurəmizin azadlıq istəyinin oyanış günü kimi sovet imperiyasının əsarətinə qarşı xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.**

Azərbaycan tarixinin şərəfli və qürur duyulacaq səhifələri çoxdur. 20 Yanvar da onlardan biridir. Məhz həmin gün Azərbaycan müstəqilliyinin bərpasının ilk addımını atdı. Cavabında isə imperiya ordusu tərəfindən qan gölündə boğuldu.

Xalqın möhkəm iradəsi və vətənpərvərlik hissləri, hətta hər bir təhlükəni nəzərə almadan silahlı, azğınlaşmış imperiya qoşunlarının qarşısında haqlı tələblərini qoyaraq qəhrəman Azərbaycan xalqı obrazını dünyaya bəyan etmişdir. Bu tələblər qarşısında aciz qalan totalitar sovet rejimi cinayətkar mahiyyətini bütün dünyaya nümayiş etdirərək 1990-cı ilin 20 yanvarında silaha əl atıb qanlı cinayət törətmişdir.

Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən ermənilər, DTK əməkdaşları və erməni kursantlar da daxil edilmişdi. Beləliklə də, 1990-cı ilin yanvar ayında Mixail Qorbaçov başda olmaqla Sovet İmperiyasının rəhbərliyi Bakıda səriştəsiz rəhbərləri əldə vasitə edərək vəziyyəti öz məcrasından çıxarmışdır.

Siyasi riyakarlığın başında duran M.Qorbaçov 1990-cı il yanvarın 19-da yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı. Qoşun Bakı şəhərinə daxil olaraq dinc əhaliyə amansız divan tutdu. Fövqəladə vəziyyət tətbiq olunanadək artıq yanvarın 20-də saat 00:00-dək əhali qırğına məruz qalmışdı, Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə şəhər hərbi komendatı Dubinyakın çıxışı və vertolyotlarla səpələnən vərəqlər vasitəsilə çatdırılmışdır. Həmin vaxt öldürülənlərin sayı 100 nəfəri keçmişdi. Ümumilikdə isə 1990-cı ilin yanvarında sovet qoşunlarının Bakıda həyata keçirdikləri qırğınlarda 131 nəfər öldürülmüş, 600-dən çox adam yaralanmışdır. Öldürülənlər arasında beş millətin nümayəndəsi, 20-dən çox qadın, uşaq olmuşdur.

Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyev



1998-ci ildə Şəhidlər Xiyabanında etdiyi çıxış zamanı buna belə qiymət vermişdir: **"O, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildi, bu, bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz və bizim xalqımıza qarşı soyqırım idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün, sizlər üçün, ailə üzvləri üçün böyük itkidir, faciədir...".**

20 Yanvar faciəsindən artıq 30 il keçir. Vurğulamaq lazımdır ki, paytaxtımızın bütün ümumtəhsil ocaqlarında olduğu kimi bizim məktəbdə də bu məqsədlə tədbirlər planına uyğun olaraq geniş hazırlıq işləri aparılır.

20 Yanvar faciəsi ilə bağlı məktəbdə divar qəzetləri hazırlanmış, rəsm sərgiləri təşkil edilmiş, inşa yazı müsabiqələri keçirilmişdir. Nəzərdə tutulmuşdur ki, rayon ərazisində şəhid olmuş günahsız insanların məzarlarına ziyarət təşkil olunsun.

20 Yanvar faciəsi ilə bağlı keçiriləń tədbirə qonaqlar dəvət olunacaq, müəllim və şagirdlərimiz Şəhidlər Xiyabanını ziyarət edəcəklər.

**Məhəbbət ƏSGƏROVA,**
**Yasamal rayonundakı**
**176 nömrəli**
**məktəbin direktoru.**